**“Malların risk qruplarının təyin edilməsi meyarları”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Malların risk qruplarının təyin edilməsi meyarları” təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 31 yanvar 2024-cü il
№ 63

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2024-cü il 31 yanvar tarixli 63 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Malların risk qruplarının təyin edilməsi

## MEYARLARI

### 1. Ümumi müddəalar

1.1. Bu sənəd “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 7.14-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və malların risk qruplarının təyin edilməsi meyarlarını müəyyən edir.

1.2. Bu sənədin məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **texniki reqlament** - mallara, onlarla əlaqəli proseslərə və istehsal metodlarına dair məcburi tələbləri müəyyən edən texniki-normativ hüquqi akt;

1.2.2. **risk** - malların insanların həyat və ya sağlamlığına, ətraf mühitə, əmlaka və dövlətin maraqlarına zərər vurması ehtimalı;

1.2.3. **malların risk qrupları** - malların insanların həyat və sağlamlığına, ətraf mühitə, əmlaka və dövlətin maraqlarına yaratdığı təhlükənin dərəcəsindən asılı olaraq yüksək, orta, aşağı qrupları;

1.2.4. **meyar** - malın risk qrupunun müəyyən olunması məqsədilə maldan yarana biləcək təhlükənin qiymətləndirilməsi üçün əsas göstərici;

1.2.5. **maldan yarana biləcək təhlükə** - malın insanların həyat və sağlamlığına, ətraf mühitə, əmlaka və dövlətin maraqlarına zərər vura biləcək xassə və xüsusiyyətləri;

1.2.6. **təhlükənin ağırlıq dərəcəsi** - maldan yarana biləcək təhlükənin və ya zərərin miqyası;

1.2.7. **həssas istehlakçı qrupu** - körpələr (1 yaşınadək), erkən yaşlı uşaqlar (1 yaşından 3 yaşınadək), 3 yaşından 8 yaşınadək olan uşaqlar, 8 yaşından 14 yaşınadək olan uşaqlar, əlilliyi olan şəxslər, hamilə qadınlar, kəskin xroniki xəstəliyi olan şəxslər və yaşı 65-dən yuxarı da daxil olmaqla yaşlılar;

1.2.8. **zədə ssenarisi** - təhlükədən yarana biləcək zədələr barədə ehtimalların toplusu.

1.3. Bu sənəddə istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

### 2. Meyarlar

2.1. Malların risk qrupları maldan yarana biləcək təhlükələr nəzərə alınmaqla, aşağıdakı meyarlar əsasında təyin edilir:

2.1.1. mexaniki təhlükə;
2.1.2. boğulma təhlükəsi;
2.1.3. elektrik cərəyanının vurma təhlükəsi;
2.1.4. istilik və ya yanğın təhlükəsi;
2.1.5. yanığa səbəb ola biləcək termal təhlükə;

2.1.6. kimyəvi təhlükə;
2.1.7. mikrobioloji təhlükə;
2.1.8. səs və ultrasəs təzyiqi nəticəsində yarana biləcək təhlükə;
2.1.9. radiasiya təhlükəsi;
2.1.10. partlayış təhlükəsi;
2.1.11. malın növündən (funksional təyinatından) asılı olaraq yarana biləcək təhlükə;
2.1.12. maye təzyiqi nəticəsində yarana biləcək təhlükə;
2.1.13. lazer mənbələrindən yarana biləcək təhlükə;
2.1.14. emal texnologiyalarının son istifadə müddəti;
2.1.15. malın son istifadə müddəti;
2.1.16. təhlükənin zərər vura biləcəyi obyektlər;
2.1.17. obyektlərə vurula biləcək zərərin təsviri;
2.1.18. zədə ssenarisi.
2.2. Meyarların tətbiqi zamanı aşağıdakılar nəzərə alınır:
2.2.1. malın yarada biləcəyi təhlükə ilə bağlı elmi-texniki məlumatlar;
2.2.2. həssas istehlakçı qrupları nəzərə alınmaqla, maldan yarana biləcək təhlükənin ağırlıq dərəcəsi;
2.2.3. maldan yarana biləcək təhlükə barədə dövlət orqanlarından (qurumlarından), bələdiyyələrdən, fiziki və hüquqi şəxslərdən daxil olan məlumatlar;
2.2.4. malın qablaşdırılmasından yarana biləcək təhlükə;
2.2.5. Qanunun 18.2-ci maddəsinə uyğun olaraq, texniki reqlamentlər qüvvəyə minənədək həmin reqlamentlərin əhatə etdiyi mallara dair standartların, həmçinin uyğunluğun qiymətləndirilməsi ilə bağlı müddəaları müəyyən edən normativ hüquqi aktların tələbləri.